# MÜTLƏQƏ İNAM

## təlimi və onun tənqidi



ASİF ATA - YENİ DİN

Mərhəmətli və Rəhimli Allahın adı ilə,
Allahın salavatı və salamı olsun
peyğəmbərimiz Muhəmmədə, onun
səhabələrinə və ailəsinə,
sonra isə:

*Araşdırma əsasən bu mövzuları əhatə edir:*

1 - İnam Ata (Asif Ata) kimdir?
2 - Asif Əfəndiyevin yeni din ideyası.
3 - Yeni dinin əsasları, inanclar.
4 - Yeni dinin təbliğ vasitələri.
5 - Asif Əfəndiyevin dəfn prossesi.
6 - Asif Əfəndiyevin fikirlərinin tənqidi.

## GİRİŞ

Möhtərəm oxucu! Yazımızın mövzusu “Asif Ata, Mütləqə İnam təlimi və onun tənqidi” olacaqdır. Təbii ki yanaşmamız İslami mövqedən olacaqdır. Bu gün bu təlimin bəzi filosoflar tərəfindən yenidən gündəmə gətirilməsi, Asif Əfəndiyevin (Asif Atanın) “Mütləqə İnam” təliminin təriflənməsi, bu təlimə elmi, dini, məntiqi yanaşma və tənqidlərin kifayət qədər olmaması bu haqda danışmağa, yazmağa olan elmi ehtiyacı artırır, bu mövzunu əhəmiyyətli edir. Çünki bu mövzu "mehdilik" iddiasına qapılmış adamların çox zaman özlərinin ölməsi ilə fikirlərinin də ölməsi ilə nəticələnən təbliğatlar kimi deyil. Təlimin sahibi kifayət qədər çalışıb ki, özündən

sonra qoyub getdiyi fikirləri yaşasın. Baxmayaraq ki, bu cür təlimlərin açıq-aydın bir şəkildə bəşər beyninin məhsulu olması ortadadır, lakin təəssüflər olsun ki, bu cür təlimlər sağlam tənqidlə qarşılaşmadıqca ayaq tutub yeriyə, vətəndaşları çaşdıra, aldada bilir. Ələlxüsus da əgər təlimi təqdim edən şəxs universitet mühitindən çıxırsa, akademik şəkildə xitab edə bilirsə, qalıcı çalışmalara cəhd edirsə, özündən sonra tələbələrini yetişdirir və bir qalıcı mərkəz qoyub gedirsə, bu zaman belə ideoloji təlimlərin tənqid edilməsi qaçınılmaz olur. Bu cür təlimlər heç bir şəkildə hansısa kənddə, qəsəbədə peyda olan “mehdilik” iddiasında olanlarla eyniləşdirilməli deyil. Hər məsələyə düzgün elmi prizmadan baxılmalıdır. Mövzuya girişi bəzi suallar üzərindən edib, birbaşa mövzuya keçmək niyyətindəyəm. Asif Əfəndiyev adlı şəxs (Asif Ata) sovet dönəmində özü ateist ikən dərnək (klub) açıb fikirlərini rahatlıqla təbliğ edir. Yeni bir ideologiya sistemi barədə düşünür. Hətta “peyğəmbər” adlanır.  Peyğəmbərlərin dinini inkar etdiyi halda onun özündən yeni bir "din", “təlim” çıxartması onda peyğəmbərlərə qarşı olan bir qısqanclıq, paxıllıq, kin-küdurət deyilsə, başqa nədir? Görəsən, peyğəmbərləri inkar edib sonra da onlar kimi özünə təqvimlər, rəmzlər, günlər, aylar, illər təyin etmək, tərəfdarlar toplamaq, yazılar yazıb onlara bənzəməyə çalışmaq, tələbələr

yetişdirməkdə peyğəmbərlərə qarşı bir paxıllıq yoxdurmu? Görəsən, onların müqəddəs dəyərlərini inkar edib "müqəddəslik"dən danışmaq nə qədər ağlabatandır? Görəsən, onları yalançılıqda ittiham edib onlara bənzəməyə çalışan nə qədər doğruçu ola bilər? Yoxsa bütün bunlar peyğəmbərlərin fərqli-fərqli millətlərdən olmalarına görədir? Bəlkə bu düşmənçiliyin səbəbi şovinist, qatı millətçilikdən irəli gəlir? Bəlkə dinsiz, sovet propoqandasına uymuş bir filosofun yetişməmiş, çəpərlənməmiş fikirləri, şəxsi düşüncələridir? Heç ilahi dəyərlər də bir-birinə düşmən ola bilərmi? Heç peyğəmbərlər də bir-birinə düşmən ola bilərmi?

Bizim bildiyimiz peyğəmbərlərin hamısı - əvvəlindən sonuna kimi - təkallahlı, tövhid inancına dəvət edib...Bəs bu, "Nəsimi" filmindən təsirlənib, özünə "peyğəmbər" deyən, yeni ideologiya yaratmaq fikrini ortaya atan adam, necə oldu ki, bütün peyğəmbərləri məhz sovet propaqandası ilə inkar etdi? Sizcə burada böyük bir paradoks yoxdurmu? Bu nəyin həsədi, nəyin kin-küdurətidir?

Mədinə şəhəri. Tarix: 08.06.2025.

# Asif Əfəndiyev (Asif Ata) kimdir?

Asif Atanın əsl adı Əfəndiyev Asif Qasım oğludur. 1935-ci ildə Ermənistan SSR-nin Çəmbərək (Krasnoselsk) rayonunun Çaykənd kəndində anadan olmuşdur (1). “Maksim Qorki” adına ədəbiyyat institunun məzunudur. O, bir filosof, ədəbi tənqidçi və "Mütləqə inam" təliminin (fəlsəfəsinin) qurucusudur. Bu təlim ateizm xarakterli olub bütün dinləri inkar etsə də, peyğəmbərləri yalançılıqda ittiham etsə də, təlimin özü yeni bir ideologiya kimi təqdim olunur və dinə çevrilir. Şəxsi həyatı barədə yazılarda onu tanıyanlar tərəfindən onun siqaret çəkən, pijamada universitetə dərs deməyə gedən, çılğın və qəribə xarakterli olması barədə çoxlu hekayələr nəql olunur. 1975-ci ildə Asif Atanın “Müdriklik səlahiyyəti” kitabı çap olunur. Elə həmin ildən etibarən o, ADU-da (indiki BDU) estetika müəllimi işləyir və orada “Etik və estetik mənəvi tərbiyə klubu” yaradır, orada çıxışlar edir. Asif Əfəndiyevin (Asif Ata) ilk ideyaları burada səslənməyə başlayır…(2). Klub aktiv fəaliyyət göstərir, gəlib gedənlər çox olur deyə universitet rəhbərliyi klubun fəaliyyətini yasaqlayır. Asif Əfəndiyev məcbur olub toplantılarını “Bilik” cəmiyyətində davam etdirir. Lakin maraqlısı budur ki, “Bilik” cəmiyyəti də Sovet təbliğat maşınının ateizm təbliğatı apardığı mərkəzlərdən biri idi.

Amma nədənsə, orada təxminən altı il təbliğatına davam edir. Əgər təzyiqlər çox güclü idisə, nə üçün onun fəaliyyəti - təkcə iki klubda - bütün Sovet Azərbaycanının gözü qarşısında yeddi il davam etdi? Nə üçün onu həbs etmədilər? 1978-ci ilin noyabrından klub “Ocağ”a çevrilir, onun sədri Asif Əfəndiyev isə ardıcılları tərəfindən “Asif Ata” adlanır. Ocaq tarixi isə 1979-cu il mart ayının 1-dən hesablanır. 1982-ci ildə Asif Atanın “Mütləqə İnam” Ocağı təzyiqlərə məruz qalır və bağlanır. (3). Asif Əfəndiyev sonra da öz fəaliyyətinə davam edir və 1997-ci ildə vəfat edir.

## Asif Əfəndiyevin “yeni din” ideyası:

Bəzi məqalələrdə ona sovet dövründə edilən təzyiqlər qabardılsa da, ona yaradılan şəraitdən və bu şəraitin nə üçün yaradılmasından nədənsə danışılmır. Sovet hökumətinin icazəsi olmadan, ateist olmadan ciddi yerlərdə klub yaratmağın mümkün olmadığı bir dövrdə atəşli çıxışlar etmək, Muhəmməd peyğəmbərin, Musanın, İsanın və digər peyğəmbərlərin (Allahın onlara salavatı və salamı olsun) “yalançı” olduğunu demək, cənnəti və cəhənnəmi inkar etməklə gündəmə gələn birisinə bir müddət şərait yaradılır. Klubu iki il fəaliyyət göstərir. Heç bir maneə ilə qarşılaşmır. O zaman ki,

yeni din yaradıb insanlara kommunistlərə vəd etdiyi dinsizlikdən başqa bir din, yeni ixtira edilmiş fəlsəfi ideologiyanı təqdim edir, bax, o zaman klubu bağlanır. Çünki kommunistlərə verdiyi vədə xilaf çıxır. Kommunistlər üçün isə Asif adlı şəxsin ateist olması, İslama və digər dinlərə qarşı olmaqda özləri ilə eyni fikirdə olması maraqlı deyildi. Onlar bir filosofun özünə edilən güvəndən istifadə edib yeni ideologiya təbliğ etməklə onları aldatmasına qəzəblənmiş və ona qarşı təzyiqləri məhz buna görə başlatmışdılar. Biz müsəlmanlar üçün isə Asif Əfəndiyev (Asif Ata) də, kommunistlər də ateistdirlər. Asif Əfəndiyevin kitabları və yazdıqları, onun tələbələrinin, yolunu gedənlərin danışıb təbliğ etdikləri də bunun ən yaxşı sübutudur. Tələbələri də bu gün dinləri inkar edir, cənnəti, cəhənnəmi, Qurani-Kərimi inkar edir, Muhəmməd peyğəmbəri yalançı adlandırır (4), İslamdakı Allah obrazını inkar etdiklərini bildirirlər. Allahın yaratması əvəzinə təbiətin yaratması fikrini səsləndirirlər. Sosial şəbəkələrdə bu haqda onların öz dillərindən olan videoları da az deyil (5). Yeni ideologiyanı qəsdli şəkildə ortaya çıxardığını isə özü öz kitabında belə etiraf etmişdi: “Yeni fəlsəfə lazım idi. Yeni idrak lazım idi. Yeni mənəviyyat lazım idi. “İnsan” kitabını yazdım. “İnam” kitabını yazdım. “Cövhər” kitabını yazdım. “Meyar” kitabını yazdım. Biri oxudu - yüzü eşitdi. Üzünü köçürtdülər. Ölkəyə yaydılar” (6). Bu

yayılma prossesinə, bu dəstəyə ateist təfəkkürü yardım edirdi. Sonrakı maneələrin səbəbi isə yuxarıda izah edildi. Əbəs yerə deyildi ki, yeni dinə çevrilmiş dinsizliyin dini kitablarında, xüsusən də Asif Atanın tələbələri yazdıqları kitablarda mövzu başlıqlarında İslami kitablarda olduğu kimi "bismilləhir-rahmənir-rahim" yazısı və ya salavat yazacaqları yerə Asif Atanın şəxsiyyətini nəinki peyğəmbər elan edən, hətta onu ilahiləşdirən ifadələr yazırlar. Məsələn, Nurtəkin Atalının "İnamın Gəlişi" kitabının 8-ci səhifəsində yeni mövzuya başlamazdan əvvəl belə yazılıb: "Mütləqimiz, Müqəddəsimiz, Peyğəmbərimiz İnam Ataya Ali Səcdəylə"(7)....Kitabın "Giriş" hissəsi isə bu sözlərlə sonlanır: "Atamız var olsun". (8). Bu mövzunun sonunda mühüm bir ziddiyyətin düyününü açaraq yeni din ideyasının nə üçün "Ocaq" formasına keçid etdiyini öz tələbəsi Soylu Atalının dilindən olduğu kimi oxuyaq: "deyir elə ki, ilk öncə bizim istəklərimiz başqa idi. Biz istəyirdik özümüz hakimiyyətə gələk, Azərbaycanda öz istədiyimiz şəkildə milli dövlətimizi quraq, yönətimi ələ alaq, öz dəyərlərimizi, öz milli kimliyimizi dərk edək, oturuşduraq. Amma DTK-nın təzyiqləri yeni aşamaya keçdikdə, onda nə yazıqlar ki, ətrafımda heç kim qalmadı. Tək qalır…deyir: elə ki, gördüm mən tək qaldım, onda düşündük daşındıq "ocaqlaşma" yolu tutduq. 1979-cu ildə ocağı elan edir. Ondan sonra klubun sədri (əvəzinə)

“Asif Ata” çağrılır”(9). Gördüyünüz kimi hakimiyyətə gəlmək planı baş tutmayanda Asif Əfəndiyev dindən istifadə etməyə, özünü “Peyğəmbər” elan etməyə, “Ocaq” açmağa başlayır, planlarını dəyişir. Bu “müqəddəs yol” deyil, başqa nədirsə, qoy ona oxucuların özü qərar versin! Soylu Atalı bu sözləri nəql edərkən həm də qeyd edir ki, Asif Əfəndiyevin dəfələrlə bildirdiyinə görə “Ata” sözü “Peyğəmbər” sözündən daha qədim, daha böyük sözdür. Buradan da onların tez-tez istifadə etdikləri “Ata” sözünün mənası daha aydın olur. Burada bir ucaltma və təzim mənası var.

## Yeni dinin əsasları, inanclar:

Asif Əfəndiyev (Asif Ata) öz təlimini yazdığı kitablarda ifadə edir, fəlsəfəsini kitablarda izah edirdi. Bu məqsədlə irili-xırdalı 45 kitab yazmışdı. Bu təlim insanı Allah yerinə qoyur, ona görə tez-tez “insanlaşmaqdan” danışır. Zahirən bir “parlaq” fikirə oxşasa da kitablarından ateist ruhunun yağdığını orta bilikli bir dindar çox rahat şəkildə hiss edə bilir. Ateist ruhlu yeni təlimin altı əsası var idi: “Mütləqə İnam, Kamil insan, Müstəqil Vətən, Ruhani Birlik, Özümlü Şərq, Ləyaqətli bəşər” (10).

*Bu altı əsasın izahına gəldikdə isə, onun fəlsəfəsinin "mütləqə inam" olmasının mənasını tələbələrindən biri olan Nurtəkin Atalı özünün yazdığı "İnamın Gəlişi" kitabında belə izah edir:*

"İnam - Asif Atanın adı ilə bağlı olan dünyabaxış - dünyanın, həyatın, insanın mahiyyətinə inanmaqdır və mahiyyəti əzəli, əbədi, sonsuz və kamil - yəni Mütləq saymaqdır. Buna görə də Asif Atanın yaratdığı dünyabaxış - Mütləqə inam adlanır və bu həm də onun altı ideyasından birincisinin adıdır.

Mahiyyət insan tərəfindən dərk olunur. Buradan da Mütləqə İnam təliminin ikinci (ideyası) yaranır: Kamil İnsan.

İnamçılıq - gerçəkləşmək üçün yaradılıb, həyatda iş görmək - insanlararası münasibətləri yaxşılaşdırmaq üçün yaradılıb (yalnız nəzəri təlim kimi yox, Allaha, ya nəyəsə ibadət üçün yox). Onun "Ruhani Birlik" tələbi (ideyası) bundan irəli gəlir. Ruhani Birlik ideyası cəmiyyətçiliyi rədd eləyir: ağa-nökər münasibətlərini, təbəqəçiliyi, özgəçiliyi, maddiyyatçılığı…

İnamçılıq - həm dini, həm dünyəvi kürəsəlçiliyi, kosmopolitçiliyi, vətənsizliyi ardıcıl olaraq rədd eləyir, damğalayır. İndiki dünyanı başına götürüb gedən bu baxışlara qarşı özünün Müstəqil Vətən tələbini (ideyasını) irəli sürür. İnamın Müstəqil Vətən ideyası yalnız patriotçuluq deyil. Bu - insanı

dünyaya yiyə durmağa, ona müqəddəs gözüylə baxmağa çağırışdır. Bu - dinin ümmətçilik, demokratiyanın transmillilik təlqinləri biçimində gerçəkləşən kosmopolitizminə qarşı döyüşdür. Ümmətçilik də, transmillilik də böyük yalan, ikiüzlülük və zorakılıq qaynaqlarıdır - bəşəri və torpağı simasızlaşdıran…

İnamçılığın beşinci tələbi (ideyası) "Özümlü Şərq" adlanır. İnamın Yaradıcısı Şərqi belə səciyyələndirir: Ruhaniyyat İşığı, Müqəddəslik İşığı, İnam İşığı, İdrak İşığı, İradə İşığı, Vəcd İşığı, Vəhy İşığı. Və bu yönü bütün bəşərə aid edir, bəşərin xilası sayır. Ona görə də "Özümlü Şərq" tələbimiz yalnız Şərqin öz əzəli dəyərləri, kökünə qayıtmasını yox, bütövlükdə bəşərin bu işıqlara qərq olmasını nəzərdə tutur.

Bu beş ideyanın yüzillərlə işləməsi, bu beş tələbin yerinə yetməsi "Ləyaqətli Bəşər" (altıncı əsasın) yaranmasıyla sonuclanır. (11).

**Bu qeyd olunan altı əsasın birinci əsası** insanı ilahiləşdirmək, insanı hər şeydən üstün tutmaq düşüncəsi dünya tarixində bir yenilik deyil. Sadəcə bir fəlsəfi və ateistik düşüncədir ki, qərbin kilsə ilə mübarizəsinin sonunda ortaya çıxmış fəlsəfi-ateistik görüşlərdən yalnız biridir. Qərbdə yaranmış "Humanizm" cərəyanı insanı ilahiləşdirir, təxminən belə bir ateistik fəlsəfəyə gətirib çıxarır.

Hegelin fəlsəfəsində də buna bənzəyən izah var. Bunun kimi "Existensializm" cərəyanı da bir çox buna bənzər ateistik fikirlərin təməli olmuşdur. Şərqdə isə tarixdə İslam ruhundan uzaqlaşmış ifrat sufilikdə "Vəhdətil-Vücud" və s. fikirlərdə bu konsepsiyanın bəzi elementləri mövcud olmuşdur. Elə "Mütləqə İnam" fəlsəfəsi bu baxımdan "Hürufilik" təriqətinə üz tutmuşdu. Halbuki, Nəsiminin təlimində insan nə qədər ucaldılsa da, o həqiqi Xaliq (Yaradan) yerinə qoyulmurdu. Ona görə "hər bir yaradılmış yaradandır. İnsan ilahi surəti özündə təcəssüm etdirən ən ali varlıq idi". İslam dininə görə bu etiqad İslama zidd, küfr etiqad olsa da ateistlərin qəsd etdiyi "müasir ateizmlə" mütləq şəkildə uyğunlaşmır. Buna baxmayaraq Sovet dövründə İmadəddin Nəsimi və onun ateist olması mövzusu haqda geniş mübahisələr yaşanmışdı. Sovet hökuməti Nəsimini digər azərbaycanlı şairlərdən çox önə çəkir və onun təbliğatını aparırdı. Qurani-Kərimdə Allahın adlarını inkar edənlərə də "ilhad" (indiki anlamı ilə ateist) sözündən istifadə edilmişdir. Həmçinin ifrat sufilərdən namaz qılıb oruc tutan, bütün İslami əməllərə riayət etsə də "Vəhdətil-Vücud" etiqadına görə bir çox İslam alimləri tərəfindən "mülhid" (indiki izahla ateist) hökmü verilmişdir. Dini terminlərin mənalarını yaxşı bilməyən sovet araşdırmaçıları tarixdəki o mülhidlərlə, cənnətə, cəhənnəmə

inanmayan bu mülhidləri səhv salmış, mövzuları qarışdırmışdılar. “Mütləqə İnam” təliminin banisi Asif Ata da, eyni səhvə yol vermişdi (12). Hegelin fəlsəfəsi və Asif Atanın ondan təsirlənməsi haqqında qarşıda bəhs edəcəyik!

Həmçinin, insan əzəli deyil, əzəli və əbədi olan yalnız uca Allahdır, yoxdan var edəndir. Nə dini, nə də məntiqi cəhətdən insanın əzəli (öncədən həmişə var olan) olduğunu demək doğru deyil, absurd bir fikirdir. Əbədiliyi isə uca Allah insana son mənzilinə uyğun olaraq verəcəkdir.

**Bu təlimin ikinci əsası olaraq qeyd olunan “Kamil İnsan” konsepsiyası** “Hürufilik”də də var, onu da Asif Əfəndiyev yanlış anlayıb. Baxmayaraq ki, hürufilik batil əqidədir, lakin təlimin sahibi bu təriqəti öz fəlsəfəsinə uyğun şəkildə yozmağa, onlardan ateizm çalarları çıxarmağa çalışmaqla yanlışa yol verib. Artıq bu haqda bir qədər danışıldı. Digər bütün səmavi dinlər, ən gözəl şəkildə isə İslam dini insanı kamilləşməyə aparır və bu kamilləşmənin, insanlaşmanın bütün yollarını göstərir.

"**İnsanlaşma**" məsələsinin "Mütləqə İnam" təlimində qabardılmasına gəldikdə isə bu insanlaşma ən gözəl şəkildə İslamda mövcuddur.

İslam peyğəmbərinin qurduğu cəmiyyət bütün bəşər övladına örnək olan insanlaşmış, qardaşlaşmış bir cəmiyyət idi. Mühacirlərə evlərinin qapısını açan ənsarlar Məkkədən Mədinəyə köçmüş din qardaşları üçün hər şeyin ən yaxşısını etdilər, bununla da insanlığın, əxlaqın zirvəsinə çıxdılar. Peyğəmbər buyururdu ki: "Bəndə öz qardaşının yardımında olduğu müddətcə Allah da onun yardımında olar" (13).

"İnsanlaşma" həm də gözəl əxlaqdır. İslam dini ən gözəl əxlaqları təbliğ edir, insanlığın ölməsinin qarşısını alır, kamil insanı yetişdirir. Əbəs yerə deyildi ki, Peyğəmbər hədislərində davamlı şəkildə gözəl əxlaq sahibi olanların gündüzləri oruclu halda, gecələri namaz qılmaqla keçirənin savabını qazanacağını vəd edirdi. Bəli, bu kamil insan olmağın əhəmiyyətini göstərir.

Bir də insan öz yaradanını tanımadıqca, öz Rəbbindən qafil olduğu müddətcə "kamil insan" ola bilməz. Öz Rəbbini inkar edən insan ən naqis insandır. Dünyaya haradan, niyə gəldiyini, niyə yaşadığını, hara gedəcəyini bilməyən, ölümdən sonrakı həyatı da inkar edən insan kamil insan ola bilməz! Belə bir insan nə qədər kamil insan olmaqdan danışsa da, o yenə naqis insan olaraq qalacaqdır. Belə bir insan dünyaya dərs keçməyə, ağıl verməyə çalışsa da, o özünü yaradanı inkar etməklə kamillikdən uzaqlaşmışdır.

**Üçüncü əsasa gəldikdə** isə bunun ən gözəl tətbiqi və ideoloji tərəfi İslamda mövcuddur. İslam dini təbəqələşməni İslamın beş təməlindən biri olan zəkat prinsipi ilə aradan qaldırır. Buna əsasən varlı müsəlman kasıblara öz malından yardım etməlidir. İslam qardaşlığı dinimizin əzəmətli əmrlərindən biridir və bir cəmiyyət, vahid ümmət olmaq üçün hər kəs bir-birilə yardımlaşmalıdır, ehtiyac sahibləri unudulmamalı, hər kəs ruzinin, mülkün əsl sahibi olan Allahı tanımalı, Allah yolunda sədəqə verməli, cəmiyyətin islahı prossesinə əlindən gələn töhfəni verməlidir. Bu da İslamda təbəqələşməyə qarşı mübarizə yollarından biridir. İslam dini quldarlığı da tədricən ləğv etmişdir və bu haqda da ətraflı məqaləmiz var (14). Qul azad etməyə rəğbətləndirən Peyğəmbər hədisləri də bunun bariz nümunəsidir.

**Dördüncü "Müstəqil Vətən" təməlinə gəldikdə** isə hər bir müsəlman ilk öncə öz vətəninin müstəqilliyi uğrunda çalışmalı və onu yağı düşmənlərdən qorumalıdır. Odur ki, müsəlman vətəni düşməndən qorumaq üçün müqəddəs savaşda belə iştirak edə bilir. Vətənin tək sərhədlərini deyil, mənəviyyatını da müstəqil edib yan təsirlərdən qorumaq lazımdır. Bu mövzuda da İslam dini orta yolu sərgiləyib. Nə qatı millətçilik, nə

də məcburi imperialist mövqeyində deyil. İslam dini xilafəti də, xilafət olmadan digər müstəqil müsəlman dövlətlərini də legitim və qanuni hesab edir. Bu mövzu geniş mövzu olsa da, bu qeyd İslam dininin nə qədər orta bir din olmasını anlamağımız üçün çox mühümdür. Həmçinin hər bir dövlətin öz dəyərlərinə sahib çıxması, milli və mənəvi dəyərlərini qorumağa çalışması da tam təbii bir prossesdir və İslam dini buna qarşı deyil. İslam dini yalnız cəhalətə, xurafata, Allahın hökmünə zidd inanc və prinsiplərə qarşıdır. Adət və qanunlardan İslama zidd olmayan minlərlə misallar var. İslam tək ərəblərin dini deyil, bütün bəşərin dinidir. Bu haqda "Ərəbin, yoxsa bütün dünyanın dini?" adlı məqaləmizi oxumaq mümkündür (15).

**Beşincisi əsasda** açıq şəkildə qeyd olunub ki, "Ona görə də "Özümlü Şərq" tələbimiz yalnız Şərqin öz əzəli dəyərləri, kökünə qayıtmasını yox, bütövlükdə bəşərin bu işıqlara qərq olmasını nəzərdə tutur". Bu sözlər "parlaq" görünsə də, reallıqda Şərqin tarixində nəhəng bir izi olan İslamı inkar etmək "Özümlü Şərq" prinsipinə ziddir. Sonra ümmətçiliyi inkar edib türkçülüyü Şərqin Özü etmək də Şərqin digər xalqlarını nəzərə almamaq, şovinist bir yanaşma kimi görünür. Bu tənqiddə hər millətin öz dəyərlərinə sahib çıxması qəsd olunmur. Özümlü

Şərq prinsipinin yanlış təqdim edilməsi qəsd olunur. Çünki Şərq özü böyük bir məfhumdur.

**Sonuncu altıncı “Ləyaqətli Bəşər” prinsipi** isə hər ideologiyada bir cür təsəvvür edilir. Hər ideologiyada insanın “Ləyaqətli Bəşər” olması üçün müəyyən tövsiyələr vardır. Deməli, bu altıncı prinsip də bir yenilik sayılmır. Bu fikirlərin hamısı digər ideologiya və cərəyanlardan götürülmüşdür. O zaman dinlərin uydurma olduğunu deyən bu fəlsəfi təlimin özü də təhrif olunmuş dinlərin durumuna düşür. Xristianlığa bütpərəst dinlərdən keçmiş elementlər olduğu kimi, ateistik fəlsəfəyə dini mahiyyət qataraq “Mütləqə İnam” fəlsəfəsinin banisi eyni səhvi təkrarlamış olur, düşmənlərinin ideyalarını öz təliminə qatır. Özünə “peyğəmbər” deyir və belə deyilməsinə göz yumur, ruhani kitabları inkar edir, amma ruhani tipli kitab yazır, İsa və Muhamməd peyğəmbərlərin təqvimləri kimi təqvimlər icad edir, aylara, illərə, həftə günlərinə yeni adlar verir və s.

Bu təlimin qurucusu təliminə rəng qatmaq, onu daha cazibədar etmək üçün təlimini bəzi fikir və əsaslar üzərində qurmağa cəhd etmişdi. Asif Ata Ocağının özünün yeni təqvimi var idi. Həmin təqvim mart ayından başlanırdı (1979-cu ildən etibarən). Mart - Günəş, Aprel - Çiçək, May - İşıq, İyun isə

Şölə adlanırdı (16) və beləcə hər ayın öz adı var idi. Eyni zamanda, həftənin günlərinə də yeni adlar vermişdi: məsələn, arzu - bazar ertəsi, ümid - çərşənbə axşamı, dözüm - çərşənbə (17) idi.

Bundan əlavə, ilin bəzi günlərini müqəddəs günlər və bayramlar elan etmişlər. Nurtəkin Atalı “İnamın Gəlişi” kitabının 28-ci səhifəsində bunları deyir:

“**İÇ KURALLARIMIZ**:

**Ocaq mərasimləri:**

1 - Yeni il - 1 Günəş (mart).
2 - Ruhani İdrak Günü - 25 Çiçək (aprel).
3 - Evlad günü - 1 Şölə (iyun).
4 - Ata Sonevini Ziyarət Günü - 5 Şölə (iyun).
5 - Müqəddəs Ziyarətgah Bayramı - 1 Qürub (avqust).
6 - Ata Günü - 25 Ata (sentyabr).
7 - “İnam Evi” Günü - 13 Yağış (noyabr).
8 - Ruhani səfər günü - 27 sərt (dekabr).
9 - Ailə Günü - 6 Köçəri (fevral).

**Ocaq bayramları:**

1 - İnsanilik - 14 Günəş.
2 - Xəlqilik - 13 Şölə.
3 - Şərqilik - 12 Ata.

4 - Bəşərilik - 12 Sərt (18).

“Mütləqə İnam” ocağına gedənlər onun sağlığında tez-tez Asif Atanın əlini öpür və bunu qədim bir türk adəti olması ilə əlaqələndirirdilər.

## “Mütləqə İnam”ın bəzi terminlərinin mənaları:

**Ocaqçı:** Ocağa beyət gətirən şəxslərdir. Beyət edən şəxslər adətən belə deyirlər: “Ocaqçıyam, Ocaq evladıyam”(19). Beləcə ocağa tabe olurlar. Ocaqçının formal təyini üçün dörd tələbə riayət etmək gərəkir:

1 - Ocaq ailəsində olmaq. 2 - İnam Evini inamçılığın mərkəzi və inamçıların məbədi kimi qəbul etmək. 3 - Ümumi Ocaq yükümlüsü təsisatını qəbul etmək (itaət barədə beyət - red). 4 - Ocaq-Türk əlifbasını bilmək və işlətmək. (20).

**İnamçı**: Elmi yalnız elm kimi anlayan - onu dünyabaxış saymayan, bütün “göyel” (səmavi) dinləri rədd edib, yalnız İnam Atanın (Asif Atanın) yaratmış olduğu dünyabaxış əsasında yaşayan, İnam Atanı öz Peyğəmbəri sayan və sevən, Atanın yazdıqlarını özünə Müqəddəs Kitab kimi qəbul edən istənilən vətəndaş İnamçıdır (21).

## Yeni təlimin təbliğ vasitələri:

Yeni təlimin təbliğ vasitələrinə ilk öncə "Mütləqə İnam” ocağı adı verdikləri mərkəz daxildir. Bununla yanaşı keçmişdə məktəblərdə çıxışlar etmək və kitablar paylamaq metodu da geniş yayılmışdı. Amma yenə gənclər arasında təbliğat aparmaq, kitab paylamaq, şəxsi söhbətlərə cəlb etmək metodu mövcuddur. Sonradan sosial şəbəkələrin yayıldığı dönəmlərdə bu təbliğ vasitələri daha da genişlənir, bu yeni vasitələrdən də istifadə etməyə başlayırlar. İnamçıların vaxtı ilə məktəblərdə şagirdlər qarşısında çıxışlar etmək, şagirdlərə kitab və broşürlər paylamaq halları barədə çoxsaylı bilgilər gəldi, bu hallara şahid olan müsəlmanların da bu barədə etirafları oldu.

Bu təbliğat vasitələrinə bəzi sovet filmləri də daxildir. Əvvəldə qeyd etmişdik ki, Asif Atanın ideyalarının yayıldığı ilk klub 1975-ci ildə fəaliyyətə başlayır. Burada maraqlı bir faktı qeyd edək. Məlum olduğu kimi “Nəsimi” filmi 1973-cü ildə çəkilir. 1974-cü ildə məşhurlaşır. Məhz bu filmdən sonra Asif Ata 1975-ci ildə fikirlərini Nəsimi filmindən ruhlanaraq yaymağa başlayır. Bu amil onun birdən-birə fəlsəfi-ateistik bir təlimə başlamasına böyük təkan idi. Çünki onun daxilindəki fəlsəfi duyğular bu film ilə daha da cuşə gəlmişdi. Əbəs yerə deyildi ki o, az qala bütün kitablarında, bütün

çıxışlarında Nəsimidən yazır və danışırdı. “Nəsimi” filmi sovet dövründə Sovet Azərbaycanında çəkilmiş ən bahalı filmlərdən biri idi.

Hətta 1982-ci ildə çəkilmiş “Nizami” filmində belə dahi şair Nizamiyə aid olmayan fikirlər fəlsəfi hala salınmış, bir qədər Nəsimiyə bənzədilmiş Nizami obrazını görürük. Hürufilikdən uzaq olan Nizami belə, hürufi kimliyində, siyasi və dini baxışları təhrif edilmiş bir şəkildə təqdim olunur. Əbəs yerə deyil ki, internetdə Asif Ata tərəfdarları “Nizami” filmindən kəsilmiş “kamil insan” haqda və digər bəzi fraqmentləri paylaşırlar.

## Asif Əfəndiyevin dəfn prossesi:

Asif Əfəndiyev 1997-ci ildə vəfat etdi. Onu ardıcılları öz adətləri və qəribə mərasim üslubu ilə dəfn etdilər. Asif Atanı mavi parçaya bürüyüb, üzü Günəşə sarı torpağa tapşırdılar. Qəbrin üstünü isə altı dirəklə əhatələdilər. Sonra həmin dirəklərin üstünü halə şəklində birləşdirdilər. Bu altı dirək onların inanclarının altı sütunu demək idi: Mütləqə İnam, Kamil insan, Müstəqil Vətən, Ruhani Birlik, Özümlü Şərq, Ləyaqətli bəşər (22).

Həmin günün sabahısı Molla Aydın adlı biri ətrafdakı camaatı Asif Atanın ardıcıllarının üstünə

qaldırır. Deyir ki, burada bir kafir basdırılıb, biz müsəlmanlar buna yol verə bilmərik! Gərgin vəziyyət yaranır, adamlar qəbrin açılmasını tələb edirlər.

İş o həddə çatır ki, Asif Atanın qohumları məcbur olub, qəbri açırlar və onun nəşini Ağstafa rayonuna aparıb ikinci dəfə İslam qaydaları ilə dəfn edirlər. Ardıcılları da qəbri üstündə öz inanclarına uyğun çıxışlar etməklə yetinirlər (23). Amma onu da qeyd edim ki, onu ikinci dəfə İslam qaydaları ilə dəfn etməyə ehtiyac yox idi. İnsan İslam üzərində yaşamayıb, başqa cür dəfn edilib, onu məcbur İslam qaydaları ilə dəfn etmək savadsız bir addım olmuşdur. Bir insanı ömrü boyu mübarizə apardığı bir inancın qaydaları ilə basdırmaq həmin inancın özünə qarşı hörmətsizlikdir.

## Asif Əfəndiyevin fikirlərinin tənqidi:

*“Yeni dinin əsasları” mövzusundan danışarkən əslində təlimin altı əsas prinsipini tənqid etmişdik. İndi isə keçək digər məsələlərin tənqidinə:*

**Birincisi**: Asif Atanın fikirləri "Milli azadlıq hərəkatı"nın başlamasına bir neçə il qalmış bir zamanda yayılmışdı. Milli düşüncənin oyandığı bir vaxtda Asif Əfəndiyev insanları öz təliminə inandırmaq üçün bu təlimə millətçilik şüurunu da əlavə edib, konsepsiyasını inkişaf etdirməyə çalışır. Çünki ötən əsrin yetmişinci illərinin sonları, səksəninci illərinin əvvəllərində artıq milli şüurun oyanmasını gizli də olsa təbliğ edən kifayət qədər ziyalılar var idi. Amma Asif Əfəndiyevin “millətçilik” modeli yeni, dinsiz bir azərbaycanlı modeli olduğundan, din mövzusunu bir az ateizm, bir az da fəlsəfəylə qarışdırıb ortaya qəribə bir model çıxarmışdı. Hətta türkçülüyün və ya bəzi milli təməlləri olan dəyərlərin araşdırılıb bu “yeni təlimin” nəzərindən keçirilməsi də mahiyyəti dəyişmək iqtidarında deyildi. Çünki təlimdəki bəsitlik, yapmacılıq ortada günəş kimi aydın idi. Odur ki, onun bu təlimi Azərbaycanın beyin mərkəzləri tərəfindən qəbul görməyib, onun fəlsəfədəki yanılqısı əsasən milli şəxslər tərəfindən rədd edilib. Onlar anlayıblar ki, Asif Əfəndiyevin ortaya

çıxardığı, sovet fəlsəfəsinin, ateizminin girdabında yoğrulmuş bu kamilləşməmiş "ruhaniyyətin" (ideologiyanın) kamilləşmiş kimi təqdim edilməsi yanlışdır. Onlar anlayıblar ki, bu təlim 1918-ci ildə qurulmuş Azərbaycan cümhuriyyətinin İslama verdiyi dəyəri də inkar edir və neçə-neçə böyük azərbaycanlıların dinə baxış bucağından uzaqdır. Bu təlim ilk azərbaycanlı vətənpərvər şəxsiyyətlərin dinə baxış tərzindən uzaqdır. Bu təlim sovet propoqandası altında xalqın təhtəlşüuruna yeridilmiş yalançı qəhrəmanları milliləşdirmək yolunu seçib. Bütün bu səbəblərdən də bu təlim ciddi elmi mərkəzlərin rəğbətini qazanmamış, ciddi araşdırmaçılar tərəfindən tənqidlə qarşılanmışdır.

**İkincisi:** Asif Əfəndiyev Nəsimini ateist kimi vəsf etmişdir. Bu, onun hürufiliyin mahiyyətindən xəbərsiz olmasını göstərir. Bu barədə Asif Əfəndiyevi tənqid edənlərdən biri də Güntay Gəncalp olmuşdur. O bu haqda belə demişdir: "Asif Əfəndiyevin Nəsimi haqqında yazdığı “fəlsəfi” fikirlərinin Nəsimi yaradıcılığı ilə heç bir əlaqəsi yoxdur. O, ortaya qoyduğu dünyagörüşünün izini tarixdə ararkən Nəsimini də ateist kimi təqdim etmişdir. Bu tarixi olayların və şəxslərin, özəlliklə Nəsimi haqqında söylədiklərinin tarixi gerçəkliklə heç bir əlaqəsi olmamış, bunlar onun xəyal dünyasının məhsulu olmuşdur. Asif Əfəndiyevin

Nəsiminin şeirləri üzərinə yazdığı yazılar təhrifdən başqa bir şey deyildir". (24).

Nizami Gəncəvi haqqında da durum eynidir. Asif Əfəndiyev dahi Azərbaycan şairi Nizami Gəncəvini də öz "fəlsəfə"sinə alət etməkdən çəkinməmişdi. Öncə də qeyd etdiyimiz kimi həm 1982-ci ildə çəkilmiş "Nizami" filmində "kamil insan" obrazı və Nizaminin dini, siyasi fikirlərinin təhrif edilməsi, bundan öncə də sovet yazarlarının Nizamiyə başqa mahiyyət verməlləri Asif Atanın da eyni mövqedən çıxış etməsi əbəs yerə deyildi. Halbuki, Allaha inanan şeyx Nizami ilə Asif atanın fikirləri arasında yerlə göy qədər fərqlər var.

Xaqani Şirvani haqqında da durum eynidir. Sovet təbliğat maşınının ateist kimi qələmə verdiyi şəxslərdən biri də Xaqani Şirvani olmuşdur. Əbəs yerə deyil ki, dövrün övladı olan Asif Ata bu fikirləri mənimsəmişdi. Hətta "Xaqaniliyimiz" adlı böyük bir yazı yazıb nəyisə sübut etməyə çalışmışdı. Lakin xəbəri yox idi ki, Xaqani Şirvani fəlsəfəni də, ateizmi də rədd edən inanclı birisi olmuşdur. Xaqani Şirvaninin bu şeirini oxumaq onun dinsizliyə qarşı olmasını anlamaq üçün kifayət edir:

Bu Allahsızların qulluğundan qaç,
Haqqın qapısını ehtiramla aç,
Şər dolu qapıdan uzaqlaş daha,
Xaqani, get sığın o bir Allaha (25).

Xaqani Şirvaninin bu şeirini oxuduqda isə onun fəlsəfəyə qarşı necə sərt bir mövqedə olmasını anlamaq olur:

Əvvəl din barədə söhbət açıb sən,
Sonra can qədimdir dindən deyirsən.
De, nə vaxta qədər sən yorulmadan,
Çürük fəlsəfədən dəm vuracaqsan?
Əslinə baxanda fəlsəfə sözü,
Lap səfeh sözünə bənzəyir düzü,
Ayrı bir mənası olmamış dərin,
Quranın, danılmaz bu hədislərin.
Önündə, məlum ki, anlayır hər kəs,
Yunan fəlsəfəsi bir çöpə dəyməz.
Vaz keç bu söhbətdən, heç bənd olma sən!
Bir fülus yaxşıdır min fəlsəfədən.
Canını, gəl, dinə tapşır sən ancaq,
Səni şübhələrdən o qurtaracaq! (26).

Yəqin ki, Asif Atanın bu şeirlərdən xəbəri olmayıb!

**Üçüncüsü**: **Fəlsəfəsinin qısa tənqidi:** Asif Əfəndiyev Hegelin “mütləq idealizm” fəlsəfəsindən təsirləndiyi üçün təliminin adını da "mütləqə inam" qoymuşdur. Azərbaycanlı yazar Şəlalə Göytürk “Asif Ata - Hegelçiliyin milli improvizasiyası” adlı yazısında Asif Atanın olduqca təzadlı və mücərrəd

düşüncəli bir şəxs olduğunu qeyd edir: “Asif Atanın düşüncələrində alman filosofu Hegelin izləri aydın görünür. Amma Hegeldən fərqli olaraq, Ata öz ideyalarını sistemli, konseptuallaşmış formada deyil, şairanə intonasiya ilə, hətta populist şüarlarla təqdim edir… Ümumilikdə, Atanın fəlsəfəsi mücərrəd və qarışıq təsir bağışlayır… Hegelin mütləq ideya konsepsiyasında hər şey nəzəri şəkildə, kateqorik sistemlə izah edilib. Asif Atada isə bu elmilik, daha doğrusu, konseptuallıq, dəqiqlik yoxdur (27).

Hegelin din haqqında fikirlərinə gəldikdə onun ateist olmadığı məlumdur. Hətta mənbələrdə onun inanclı bir xristian olduğu, din təhsilinin belə olması qeyd olunur. Bir çox fəlsəfəçilər kimi onun da mübahisə doğuran fikirlərinin olması onun ateist olması kimi qəbul edilə bilməz. Sadəcə o dini həqiqətləri rasional təfəkkürlə isbat etmək gərəkdiyini iddia edən şəxslərdən olub. Lakin Hegeldən onun yalnız mübahisə doğuran fikirlərini götürmək Asif Əfəndiyevin öz şəxsi seçimi olmuşdur. Hegelin metafizika barədə mövqeyi də ağır mövzulardan sayılır. Hətta Asif Əfəndiyevin Hegeldən götürdüyü “mütləq idealizm” fəlsəfəsinin özü də tənqidlərə məruz qalmışdır.

Arthur Şopenhauer yazırdı: “Hegel qaranlıq danışaraq dərin görünməyə çalışır”.

Şopenhauerin əsas iradı Hegelin dili və düşüncə tərzinin qəsdən mürəkkəb və anlaşılmaz olmasıdır.

O, Hegelin sistemini həm metafizik, həm də siyasi cəhətdən təhlükəli hesab edirdi… O haqlı olaraq Hegelin fəlsəfəsinin həyati təcrübədən uzaq olduğunu, onda çox vaxt reallığın deyil, konseptual strukturun hökm sürdüyünü irəli sürür (28). Eynilə bu qaranlıq danışmaq üslubu Asif Əfəndiyevdə də var idi. Hegelin fəlsəfəsini Kant belə tənqid edib və Hegelin bu sisteminin məntiqi və metodoloji risk daşıdığını bildirib. Əslində bu mövzu geniş olduğu üçün çox uzadıb, oxucuları yormaq fikrində deyiləm.

**Dördüncüsü:** “**Ateist” və "peyğəmbər adam” ziddiyyəti:** Onun indiki tərəfdarları onun özünə “peyğəmbər” deməsini inkar edərlər. Amma, həm Asifin özü, həm də tərəfdarları ona "peyğəmbər" deyiblər. Asif Atanın peyğəmbərlik iddiası ona böhtan deyil. Bu aşağıda keçidi verilmiş (29) videoda öz dili ilə dedikləri yazılıb: "Peyğəmbərliyim, şairliyim, filosofluğum ölmür". Bu sözləri meyiti üzərində onun öz yazdığı kitabından filosof Müşviq Ötgün oxuyur. Eyni videoda tələbələri də onun vəfatına təəssüf etdiklərini bildirərkən bir-bir onu "peyğəmbər" adlandırırlar (30). Bir videoda isə ayin icra etdikləri məcliscə bir-bir onun əlini öpüb ona “peyğəmbər”, hətta “Allahımız” deyə xitab edilir, o isə bundan olduqca xoşnutdur, zərrə də narahat deyil, ən azından bu sözlərə etiraz etmir (31).

**Beşincisi: Yazılarını vəhyə bənzətməyə çalışıb;** Bu da onun yeni din qurması fikrini dəstəkləyir. O belə deyirdi: “Vəhy – İdrak Yolunun nəticəsidir. Vəhysiz yazdığım əsər olmayıb” (32). Özündən icad etdiyi yeni dini bu cür etiraf edirdi: “Öz Fəlsəfəmi yaratmışam. Öz İnamımı yaratmışam. Öz Ocağımı yaratmışam”. (33). Bu sözlərilə də dinlərə inamının olmadığını, özünə yeni inam yeri yaratdığını bildirir. O, sovet dövründə oxuduğu universitetdə dinlər barədə verilən bilgilərdən təsirlənmiş və bunu öz fəlsəfəsinə yansıtmışdı. Sovet təfəkkürünün mifologiya barəsində öyrətdikləri ona təsirsiz ötüşməmişdi.

**Altıncısı**: Asif Əfəndiyev (Asif Ata) öz ardıcıllarına vəsiyyət etmişdi ki, biz ayrıca bir torpaq sahəsi götürüb öz qəbiristanlığımızı yaradaq (34). Bu ideyanı yalnız yeni din, inanc sistemi yaradanlar edə bilərdilər. Çünki nə müsəlman, nə xristian, nə də yəhudi qəbirstanlığında basdırılmaq istəməyən birisi ancaq yeni ideologiya sahibləri ola bilərdilər. Amma bu ideologiya dinsizlik cərəyanlarının içində itdiyi, köhnə fəlsəfələrdən qidalandığı üçün nə bəşəriyyət, nə də xalq üçün bir əhəmiyyət kəsb etmədi, nə bir yeni mahiyyət ifadə etmədi.

**Yeddincisi**: Qurani-Kərimdə varid olan “Habil və Qabil” hekayəsi kimi ibrətli bir hekayə Asif

Əfəndiyevin dilindən saxtalaşdırılır, ateist təfsiri ilə yozulur. “Qabil etirafı” şeirində Qabilin dilindən Allaha qarşı həzəyanlar danışır, ittihamlar səsləndirir, üsyankar suallar verir. Az qala bu şeiri indiki dövrdə dinlə istehza edən ateistlərdən birinin yazdığını düşünməyin gəlir. O daha da irəli gedərək bu şeirdə “Allahı öldürmək” haqqında danışır. Allahın ədalətsiz olmasını iddia edən suallar verdikdən sonra, haşa belə deyir: “Allahın nəyi böyükdür? Nəyi səcdəyə layiqdir?”. Sonra bir qədər dəyərsiz, safsata cümlələrindən sonra Qabilin dilindən icad etdiyi sözləri deyir: “Anladım ki, Habili nahaq öldürmüşəm. Allahı öldürməliydim, ya da özüm ölməliydim”. Şeirdə bir növ möminlərin Allaha bəndə olmasına, ona ibadət etməsinə qəzəbini, qıcığını bildirir, sonda yenə Qabil Allahın yaratdığı dünyanı pisləyir və deyir: “Məşəqqətim dözülməzdir, əlacım Allahı öldürməkdir”. Bu şeirdə başdan ayağa ibadəti, Allaha qulluğu pisləyir, Allah varsa, qulluq da olacaq deyir, ona görə çıxış yolunu “Allahı öldürməkdə” görür (35). Azərbaycan dilində danışan heç kəs hələ indiyə kimi belə təhlükəli sözləri işlətməmişdi ki, onu da bu söz cinayətkarı Allaha qarşı işlətmişdir. Halbuki, Qabilin Allaha qarşı belə ifadələr işlətməməsi və bu hekayədəki digər ibrətlər müsəlmanlara məlumdur.

**Səkkizincisi**: İdeologiya qurmaqda nə üçün ən birinci "Mütləqə inam" kimi fəlsəfi bir fikir seçilir və altı əsasın əvvəlinə salınır? Məsələn, İslam ideologiyası sadə bir kəlmə ilə izah edilir. “Lə iləhə illəllah”, bu qısa kəlmə İslamı kökündən izah etməyə qadir olan çox əzəmətli və aydın bir ifadədir. “Lə” (yox) deyəndə Allahdan başqa bütün ibadət edilənləri inkar etmiş olursan və s. “illallah” (Allahdan başqa) deyəndə isə yalnız Allahın ibadətə layiq məbud olduğunu təsdiqləyirsən. Bu qədər sadə və aydın... Fəlsəfi ideyalar isə həmişə insanların fitrətinə, sadə təbiətinə uyğun gəlmir. Çünki insan beyninin məhsuludur, rəbbani deyil, ilahi deyil. Rəbbani olmadığı üçün də ibadətə çağrılan şəxsi mükafatsız qoyur. Çünki təlimdəki rituallar haqqında izahda deyilir ki, bunu edən savab qazanmır, tərk edən də günah qazanmır, sonra da ibadət edən düşünür ki, deməli bu rituallar boş şeydir, Atamız bizi səhv öyrədib. Bu ayinlərin bir faydası yoxdursa, vaxtımızı boş yerə sərf etməyək. Asif Ata dini rituallar kimi bir şey təqdim etsə də bildirir ki bundan savab qazanmırsan, çünki bunu mükafatlandıran biri yoxdur. Cəza və ya günah amilini də izahsız qoyur. Zərdüştlük belə bu məsələni Asif Atadan daha yaxşı çözüb. İnsan özündən ideologiya icad edir, amma ardınca gedənləri qane edən izahları verə bilmir. Nə yaxşı ki, siyasi məqsədlərinə çatmayanda "Ocaq" qurmaq

və "ruhaniyyata" sığınmaq qərarına gəldiyini tələbələrinə etiraf edərək bu işləri nə üçün etdiyini bəyan edib. Bu da yəqin həqiqəti axtaranlar və ona aldananlar üçün faydalı olar.

**Doqquzuncusu:** Allahı deyil, insanı müqəddəsləşdirmək, Allaha deyil, insana pənah gətirməyin təbliği, səmavi dinlərin “Allah” inancının inkar edilməsi; O, “Bilik cəmiyyəti” başlıqlı yazısında deyirdi: “Müqəddəsliyə tapınmaq lazımdır. İnsanın insandan böyük mənasına pənah gətirmək lazımdır” (36). Bu fikirlər yeni fikirlər deyil. Qərb dünyasında ateizmin, deizmin bir hissəsi olaraq ərsəyə gəlmiş fikirlərdir. Bu fikirlərdə yeni bir din üçün səciyyəvi xüsusiyyət yoxdur. Əksinə, bütün yazılarında öz həyat hekayəsini danışan bir adamın insanlara bu yazıların müqəddəs bir mətn olduğunu iddia etməsi ən böyük qəbahətlərdən biridir. Bir yazısında isə “Bayatı Şiraz” haqqında danışarkən fikrini daha aydın ifadə edərək deyir: (Burada) “Hüzzal: “İnsan - Allahdır!” həqiqəti təsdiq olunur. Leytmotiv Ehtizaza çevrilir. Ruhaniyyat çağlayır”. (37).

**Onuncusu:** Asif Əfəndiyevin çıxışlarında, yazılarında qərbləşməyə qarşı danışması Sovet propoqandasının bir hissəsi olub. Qərbdən o qədər qorxurdu ki, hətta müstəqillik dönəmində,

ölümündən bir neçə ay əvvəlki çıxışında belə, bu haqda sərt danışır. Qərbləşməni pisləyən bir insan necə olur ki, fikirlərinin özəyini Hegel və digər qərb filosoflarından götürür?! Qərbi bir vəhşi canavar kimi təsəvvür edən bu filosof dünyanın qərbləşdikcə daha da amansızlaşacağını deyir, amma öz fəlsəfəsini Hegeldən, ateist fikirlərini də qərb mütəfəkkirlərindən götürür. O unudurdu ki, qərbi vəhşiləşdirən, insanlıqdan çıxaran kilsəyə qarşı inqilabdan sonra yaranmış çoxsaylı dinsiz cərəyanlar oldu. Qərbdə formalaşmış dinsiz cərəyanlardan təkcə “Marksizm” bəşər övladının yetmiş ilini əlindən aldı, milyonlarla insanın həyatına son qoydu. Şəkk yoxdur ki, Qərb dünyasına inteqrasiya məsələləri müsəlmanlar üçün də həssas məsələdir və Qərbin elmi nəaliyyətlərini əldə etmək əvəzinə, qərbliləşmək və Qərb əxlaqına bürünmək müsəlmanlar tərəfindən də tənqid olunur. Lakin Sovet dönəmində yaranmış “Qərb dünyası və Sovet dünyası” kimi dünyaya baxış və bundan dolayı əmələ gələn yersiz qorxular ən azından müstəqillik dönəmindən sonra azalmalı, bir qədər bu fikirlərə çəki-düzən verilməli idi.

Əfəndiyevin çox qabartdığı məsələlərdən biri də "özünə qayıtmaq", "öz kökünə qayıtmaq"dır ki, bu da çox həssas mövzudur. Xalqın öz kökünə qayıtması prossesi təqdirəlayiq və möhtəşəm bir haldır. Lakin bu məqamda da necə ki, beynəlxalq

dəyərləri özümüz yadlaşmadan götürməliyik, eləcə də kökümüzə qayıtma prossesində də tarixi səhvlərə deyil, doğrularımıza doğru qayıtmalıyıq. Bu da çox mühüm bir amildir! Məsələn, əgər qədim türklərdən bir qismi tenqriçiliyi əsas götürübsə, iddia edildiyi kimi guya atalarımız gücsüz və ya yaratdıqdan sonra kənara çəkilən və ya qullarından ibadət tələb etməyən bir tanrıya inanıbsa, o zaman bilmək lazımdır ki, uca Allah Qurani-Kərimdə atalarını kor-koranə təqlid edənlər, haqqında belə buyurmuşdur: "Onlara: “Allahın nazil etdiyinə tabe olun!”– deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolla gedəcəyik!”– deyirlər. Bəs ataları heç bir şey anlamamış və doğru yolda olmamışlarsa, onda necə?!" (əl-Bəqərə. 170).

Ey inamçılar, siz İslamı sorğuladığınız kimi, atalarınız haqqında iddia olunan tenqriçiliyi də sorğulamalısınız. Çünki əgər Allah qatında yalnız bir din varsa, o əzəmətli bir din olmalıdır, şovinizmin, millətçiliyin fövqündə, bütün millətləri birləşdirən bir dəyər, beynəlxalq gücə malik bir din olmalıdır. Bu din nə ərəbçiliyi, nə türkçülüyü, nə də irqçiliyi təbliğ etməli deyil. Elə isə səmimi bir araşdırma edin. Hər kəs öz xalqını sevir, amma hər xalq özündən bir din icad edib bunu siyasi məqsədlə istifadə etsə, o zaman dinin mahiyyəti, ruhaniliyi aradan qalxar. Türklər əsrlərdir müsəlman olmaları ilə türk gücünü, türk əzəmətini itirməyiblər,

əksinə bu ideologiya vasitəsilə dünyanı lərzəyə gətirən böyük türk dövlətlərinin sahibi olublar. Din mənəviyyat məsələsidir, biz inanmalıyıq ki, haqq olan bir din heç bir xalqın milli kimliyini silə, apara bilməz, əksinə xalqı qüvvətləndirər! Bu uzun mövzu haqqında "Hədəfsiz Deizm" kitabında ətraflı danışmışıq, xüsusən də "tenqriçilik" haqqında məsələyə dini, tarixi cavabımızı bəyan etmişik və bu kitabımızı internet üzərindən "Hədəfsiz Deizm" sözünü yazmaqla pdf formatında endirib oxuya bilərsiniz! (38).

"Mütləqə inam" fəlsəfəsi dinə inamın, Allaha inamın qorxuya əsasən olduğunu iddia edir. Elə isə gəlin növbəti mövzuda bu şübhəyə cavab verək.

## Kommunist şübhəsi: Nə üçün dində qorxu sevgidən mühümdür!?

**Şübhə**: Dinsizlər deyirlər ki, dində qorxudan çox bəhs edilir. Dində qorxu, sevgidən üstün bir söhbət mövzusudur. Bəs dindəki sevgi haradadır?

**Cavab**: Bu, ateistlərin yanlış yozum verdikləri növbəti məsələlərdən biridir. Əslində dində sevginin öz yeri, qorxunun isə öz yeri var.

**Birincisi**: İslamda ilk öyrədilən məsələlərdən biri də sevgi məsələsidir. Bu mövzu dində elementar bilgilərdən hesab edilir. "Lə iləhə illəllah" kəlməsinin şərtləri arasında "sevgi" də var. Bu şərtlər: elm, yəqinlik, ixlas, sadiqlik, məhəbbət (sevgi), tabeçilik və qəbuldur. Sevgi mövzusu dində çox böyük əhəmiyyət kəsb edir. İslam etiqadına görə möminlər Allahı hər şeydən çox sevməlidirlər. Allahdan qeyrisini Allahdan çox sevmək ən böyük günah olan şirk hesab olunur. Möminlərin Allaha olan şiddətli sevgisi Qurani-Kərimdə belə vəsf olunur: "İnsanlardan elələri də var ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da, Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür". (əl-Bəqərə. 165). Bir hədisdə isə möminin sevgisinin həqiqəti peyğəmbərin dilindən belə izah olunur:

"Hər kimdə üç şey olarsa, o kimsə imanın şirinliyini dadar: Allah və onun Elçisini digərlərindən daha çox sevmək, kişinin öz sevdiyini yalnız Allah üçün sevməsi və Allahın onu küfrdən xilas etməsindən sonra küfrə qayıtmağa sanki atəşə atılacaqmış kimi nifrət etmək"(39).

**İkincisi:** Allah öz itaətkar qullarını sevir və ucaldır, ona asilik edənləri isə sevmir; bu haqda olan Quran ayələrindən bəzilərini gəlin qeyd edək:

"Allah yaxşı iş görənləri sevir". (Ali imran. 134).

"Allah yaxşı iş görənləri sevir". (Ali İmran. 148).
"Allah səbir edənləri sevir". (Ali İmran. 146).
"Allah yaxşı iş görənləri sevir". (əl-Maidə. 93).
"Allah təmizlənənləri sevir". (ət-Tövbə. 108).
"Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxarar". (əl-Bəqərə. 257).
"Allah möminlərin dostudur". (Ali İmran. 68).
Bu haqda ayətlər çoxdur, bu qədərilə kifayətlənirik.

**Üçüncüsü:** Allah sevgisi dində peyğəmbərə tabeçiliklə bağlıdır. Uca Allah Qurani-Kərimdə buyurur: "De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir". (Ali İmran. 31). Yəni, İslamda Allahı sevmək iddiası kifayət etmir, Allahı sevən Onun Elçisinə itaət etməlidir və bu sevgini öz əməlində göstərməlidir.

**Dördüncüsü**: Sevgi, qorxu və ümid mövzusu ibadətlərdə xüsusi bir əhəmiyyət kəsb edir. Ona görə də qəlbdə həm sevgi, həm qorxu, həm də ümid olmalıdır. Biri artıq digəri az olarsa və ya heç olmazsa, qarşıda izah edəcəyimiz problem yaranar. Alimlərdən bəziləri demişlər: "Kim Allaha yalnız sevgi ilə ibadət edərsə, o kimsə zındıq olar, hər kim yalnız ümid ilə ibadət edərsə, o kimsə murciə (islamda firqə adı) olar, hər kim də yalnız qorxu ilə

ibadət edərsə o həruri (xəvaric radikal firqəsinin adlarından) olar. Hər kim də Allaha sevgi, qorxu və ümidlə ibadət edərsə, o kimsə muvahhid mömin olar (40).

İndi qeyd edəcəyimiz ayədə həm sevgi, həm qorxu, həm də ümid var, bu ayət Allaha sevərək, ümid bəsləyərək dua etməyi, ona boyun əyməyi öyrədir: "Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətinə ümid edir, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir". (əl-İsra. 57).

İslam alimlərindən İbn Qeyyim demişdir:

"Qəlb Allaha tərəf gedişində quşun halına bənzəyir. Məhəbbət o quşun başıdır. Qorxu və ümid isə o quşun qanadlarıdır. Nə vaxt ki baş və qanadlar salamat olar, o zaman quş ən yaxşı şəkildə uçar; nə zaman ki başı kəsilər, quş ölər; nə vaxt ki qanadları kəsilər, o bütün ovçuların və vəhşi heyvanların hədəfinə tuş gələ bilər" (41).

**Beşincisi**: Allahın qullarına olan sevgisi onun öz qullarına olan rəhmətində təcəlli edir. Allahın rəhməti haqqında olan ayət və hədislərin hamısı, həmçinin, Muhəmməd (Sallallahu aleyhi və səlləm) peyğəmbərin də ümmətinə olan rəhmət və şəfqəti haqqında olan bütün hədislər İslamda sevgi

mövzusuna aid edilir. Çünki, sevgi rəhmətdən meydana gəlir.

Peyğəmbərimiz (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: “Həqiqətən Allah qullarından mərhəmətli olanlara rəhm edər”(42).

Məgər yaxşılığın əvəzi ancaq yaxşılıq deyilmi? Kim məxluqata rəhm edərsə, Yaradan da ona rəhm edər. Peyğəmbərimiz (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: “Rəhm edənlərə Mərhəmətli olan Allah rəhm edər, yerdə olanlara rəhm edin ki, səmada olan da sizə rəhm etsin (43).

Uca Allah Quranda buyurur: "Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu Allahdan qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam". (Əraf. 156).

Peyğəmbərin ümmətinə qarşı şəfqətli olması haqda isə bu ayəni qeyd edək:

"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir". (ət-Tövbə. 128).

Bu haqda ayət və hədislər çoxdur, bu qədərilə kifayətlənirik. Allah bu dünyada kafirə də, möminə də rəhm edir, axirətdə isə yalnız möminlərə rəhm edəcəkdir.

**Nəticə:** Deməli, aydın olur ki, dində qorxu, sevgi və ümidin hər birinə ehtiyac var. Bunlardan biri

olmasa digəri tamamlanmaz. Hər birinin dində öz yeri var. İnsan Allahı sevməsə onun əmirlərini yerinə yetirərkən və qadağanlarından çəkinərkən çəkdiyi əziyyətlərə səbir edə bilməz, bunun üçün sevgi lazımdır. İnsanın qadağanlardan çəkinməsi üçün də qorxu çox lazımlı məsələdir. İnsanın əməllərdə daha qüvvətli olması və çalışması üçün də ümid lazımdır. Deməli, sevgi, qorxu, ümid hisləri dində bir-birilə çox bağlı hislərdir.

## SON SÖZ

Möhtərəm oxucu! Əlinizdəki kitabça Sovet dönəmində ortaya çıxmış qəribə bir fəlsəfi-ateistik ideoloji cərəyanın ilk İslami tənqidi olan ətraflı yazıdır. Mövzunu bundan da geniş ələ almaq mümkün olsa da, bu qədəri ilə kifayətlənirəm. Ümid edirəm ki, bu mövzuda araşdırma edənlər üçün faydalı olar. Asif Əfəndiyev adlı şəxsin sovet dönəmində özünün də ateist olmasından dolayı, peyğəmbərləri, dinləri inkar etdiyi halda onun sərbəst fəaliyyətinə əvvəllər üzv olduğu kommunist partiyası icazə verir. Sonradan yeni din yaratdığı üçün onu partiyadan uzaqlaşdırırlar. Ancaq o hesab edirdi ki, yeni bir ideologiya yaratmaq lazımdır. Bu fikirləri ateizmdən qaynaqlansa belə, Sovet təfəkkürü onu dəstəkləyə bilməzdi. Həmin rejimdə heç kim lazım olandan artıq məşhur ola bilməzdi. Ancaq sovet və onun ideyaları öndə ola bilərdi. Asif Ata özünü xalis ateist göstərdiyi qədər ona şərait yaradılmışdı. Ancaq bundan artığını da onun üçün edə bilməzdilər. Onun haqqında yazılan yazılarda, məqalələrdə bu amilə nədənsə toxunulmur. Əksinə, onun sovet hökuməti tərəfindən “məzlumcasına” təzyiqlərə məruz qalması amili şişirdilir. Amma sual verilmir ki, bəs nə üçün Asif Əfəndiyev yeddi il müddətində Sovet klublarında açıqdan danışa bildi, fikirlərini yaya bildi, lakin həmin dövrdə heç bir din

xadimi bir gün belə fikirlərini həmin klublarda danışa, təbliğ edə bilmədi? Əlbəttə də ki, cavab bəllidir. Asif Ata ateist olmasaydı, illər boyu dinsiz klublarında çıxışlar etməzdi. Xülasə, bu Asif Əfəndiyev adlı "Asif Ata" olaraq təqdim edilən filosof İslam inancına görə küfr yolunu seçmiş, tərəfdarları qəbul etsələr də, etməsələr də özündən yeni bir din uydurmuşdur. Hansı ki, bu fikirlərin bəşəri və uydurma olması günəş kimi ortadadır! Belə şəxslərin fikirlərini müəyyən qaydalar, şərtlər olmadan nəql etmək müsəlmanlara icazəli deyildir! Yalnız tənqid məqsədilə bu fikirləri yaymaq olar!

**Yazdı:** Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov

Tarix: 08.06.2025.

# İstifadə edilmiş ədəbiyyat:


1 - Bax: Türküstan.info saytındakı “İnam Ata (Asif Ata) – 89: İnsanlaşın, insanlaşdırın” adlı məqalə. Atalı. İşıqlı.

2 - Moderator.az saytında yayımlanan “Asif Ata "Ocağ"ı və onun haqqında bilmədiklərimiz” məqaləsi, Nəsiman Yaqublunun yazısı. Keçid:
https://moderator.az/az/arasdirma/205855/asif-ata-ocai-ve-onun-haqqinda-bilmediklerimiz-nesiman-yaqublunun-yazisi/

3 - İnam Ata (Asif Ata) adlı məqalə. Qanun.az saytı. Məqalənin keçidi:
https://www.qanun.az/author/790

4 - Məsələn, bu videoda Asif Atanın kitabından onun peyğəmbərləri yalanlaması Muhəmməd, Musa, İsa peyğəmbərlərin (صلى الله عليهم وسلم) yalançı olması barədə onun öz sözləri nəql olunur.
Keçid:
https://youtu.be/6P_q4GHDe98?si=H0uwvTrbBCZTalwZ

5 - Məsələn, bu videoya baxa bilərsiniz: https://youtu.be/lFkvW15Pue8?si=BmDVh6bxiYn8lfrp

6 - İkinci Yan Bitiq: Yollaşan Aqibət. səh. 80. “Kitablar” adlı başlıq. “Qanun” nəşriyyatı. 2011.

7 - Nurtəkin Atalının (Könül Zamanova) “İnamın Gəlişi” kitabı. səh. 8. Nəşr tarixi. 2007. Bakı. “Adiloğlu” nəşriyyatı.
8 - Öncəki mənbə. səh. 7.
9 - Asif Ata haqqında faktor.az-ın hazırladığı sənədli film. Videoya keçid üçün link:
https://youtube.com/watch?v=jf7Um-HZVRE&feature=shared
10 - Kulis.az saytı. "Oğlundan imtina edən, işə pijamada gedən, iki dəfə dəfn olunan azərbaycanlı alim" - adlı məqalə.
11 - Nurtəkin Atalının (Könül Zamanovanın) “İnamın Gəlişi” kitabı. Səh.9-11. Bakı. “Adiloğlu” nəşriyyatı. 2007.
12 - Daha ətraflı bax: Sahib Əsədovun “Sovet Azərbaycanında Ateizm Təbliğatı” kitabı. səh. 9-11. Nəsimi haqda başlığa bax. Kitabı pdf formatda oxumaq üçün keçid:
https://islamhouse.com/az/books/2836511/
13 - Səhihu Muslim. 2699. Muslim ibnil-Həccac.
14 - Senxatirlat.com saytında Sahib Əsədovun “İslam dinində quldarlıq ləğv edilməyib?” (ateistlərə cavab) adlı məqalə. Keçid:
https://senxatirlat.com/islam-dininde-quldarliq-legv-edilmeyib-ateistlere-cavab/
15 - sunna.az saytında Sahib Əsədovun “Ərəbin dini, yoxsa bütün dünyanın dini?” adlı məqaləsi.
https://sunna.az/content?cid=631

16 - Bax: Kulis.az saytı. "Oğlundan imtina edən, işə pijamada gedən, iki dəfə dəfn olunan azərbaycanlı alim" - adlı məqalə.
17 - Bax: Öncəki mənbə.
18 - Nurtəkin Atalının “İnamın Gəlişi” kitabı. səh. 28-29. Bakı. “Adiloğlu” nəşriyyatı. 2007.
19 - Bax: öncəki mənbə. səh. 17.
20 - Bax: öncəki mənbə. səh.17.
21 - Bax: öncəki mənbə. səh. 17.
22 - Bax: Kulis.az saytı. "Oğlundan imtina edən, işə pijamada gedən, iki dəfə dəfn olunan azərbaycanlı alim" - adlı məqalə.
23 - Güntay Gəncalpın "Nəsimidən bixəbərlər" məqaləsi. Məqaləyə keçid: https://www.azadliq.org/a/24822807.html
24 - Şəlalə Göytürkün "Asif Ata - Hegelçiliyin milli improvizasiyası" məqaləsi. Məqaləyə keçid: https://qaynarinfo.az/az/asif-ata-hegelciliyin-milli-improvizasiyasi
25 - Milli Kitabxana. Xaqani Şirvaninin seçilmiş əsərləri. "Töhfətül-İraqeyn" əsəri. Genderi.org 15-ci yazı.
26 - Milli Kitabxana. Xaqani Şirvaninin seçilmiş əsərləri. "Töhfətül-İraqeyn" əsəri. Genderi.org 14-cü yazı.
27 - Bax: videonun 2-ci dəqiqəsinin 8-ci saniyəsinə: https://youtu.be/rN0eSzuIyGs?si=VCzIlL4QZ2IVYodu

28 - Tural İsbatovun “Hegel fəlsəfəsinə tənqidi baxışım” adlı yazısı.
29 - Bax: Öncəki videonun 7:02-ci saniyələrinə... Həmçinin 5:10-dan 5:20-yə kimi bax... 8:55-dən 9:05-ə kimi bax. 11:30-dam 11-40-a kimi bax. 12:00-da 12:10-a kimi bax. 12:30-dan 12:40-a kimi bax. Videonun sonuna kimi demək olar ki, dəfələrlə hər bir çıxış edən şəxs onu peyğəmbər adlandırır və onun adına səcdə ilə söhbətə başladığını bildirir.
30 - Bax: Öncəki mənbə.
31 - Videoya keçid:
https://youtu.be/7Vp4bKjxBwc?si=YUh
p8VkyNwpSTYg-
32 - Bax: Türküstan.info saytındakı “İnam Ata (Asif Ata) – 89: İnsanlaşın, insanlaşdırın” adlı məqalə. Atalı. İşıqlı.
33 - Bax: Öncəki mənbə.
34 - Kulis.az saytı. "Oğlundan imtina edən, işə pijamada gedən, iki dəfə dəfn olunan azərbaycanlı alim" - adlı məqalə.
35 - Bütün bu yazıları “Qabilin etirafı” şeirində oxuya bilərsiniz. Mənbə: “İnam Ata (Asif Ata) - Bədiyyat” kitabı. səh. 43. Bakı. 2006. Həmçinin bax: İkinci Yan bitiq. səh. 129-131. Qanun nəşriyyatı. 2011.
36 - Asif Ata (İnam Ata) - On Kutsal Bitiq’in (onluğun) Yan bitiqləri (Mütləqə inam fəlsəfəsi və ruhaniyyatı). İkinci yan bitiq: Yollaşan Aqibət. səh.

77. “Bilik cəmiyyəti” başlıqlı yazı. Qanun nəşriyyatı. 2011.
37 - Öncəki mənbə. səh. 314.
38 - https://byenah.com/hi/discover-islam/20916
Kitabı açmaq üçün köməkçi keçid. Kitabın pdf variantını açdıqdan sonra qeyd edilən mövzunu oxumaq üçün səhifə 14-dən 17-yə kimi oxumaq kifayətdir.
39 - Səhih əl-Cami. Albani. 3044.
40 - (Bax: Məcmu'ul-Fətə'va. İbn Teymiyyə. 10/81 və 207; Bədəiul-Fəvaid. İbn Qeyyim. 3/851. ət-Təxvif minən-Nər. İbn Rəcəb. səh. 29).
41 - Mədəricus-Səlikin. İbn Qeyyim. 1/514.
42 – Səhih əl-Buxari. 5655. Usamə ibn Zeydin hədisi.
43 - Tirmizi. Hədis səhihdir, bax: “əs-Silsilətus Sahihə”, 966.

# Qeydlər

............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................
............................................................................

# Qeydlər

# KİTABÇANIN İÇİNDƏKİLƏR:

Giriş……………………………………………………1
Asif Əfəndiyev (Asif Ata) kimdir?...........................4
Asif Əfəndiyevin “yeni din” ideyası……………. …..5
Yeni dinin əsasları, inanclar…………………………8
Altı əsasın izahları……………………………………9
Birinci əsasın tənqidi………………………………..10
İkinci əsasın tənqidi…………………………………12
Üçüncü əsasın tənqidi………………………………14
Dördüncü əsasın tənqidi……………………………14
Beşinci əsasın tənqidi………………………………15
Altıncı əsasın tənqidi………………………………..16
Təlimə aid digər inanclar…………………………..16
Asif Əfəndiyevin günləri……………………………17
“Mütləqə İnam”ın bəzi terminlərinin mənaları…….18
Yeni təlimin təbliğ vasitələri………………………...19
Asif Əfəndiyevin dəfn prossesi……….…………..20
Asif Əfəndiyevin fikirlərinin tənqidi……………. …22
Nə üçün dində qorxu sevgidən mühümdür!?........34
Son Söz……………………………………………...40
İstifadə edilmiş ədəbiyyat…………………………..42
Qeydlər……………………………………………….47
Kitabçanın içindəkilər……………………………….49

**Qeyd**: Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitabça insan əməyinin bəhrəsidir. Ona görə də kitabçada səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitabça haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:

Sahibfarmanoglu@gmail.com

**Kitabçanın adı:** Asif Ata, “Mütləqə İnam” təlimi və onun tənqidi.
**Redaktədən sonrakı tarix:** 15:06.2025.
**Kitabçanın səhifələrinin sayı:** 50.
**Kağız ölçüsü:** A5 (14.8cm × 21.0cm).
**Müəllif:** Sahib Əsədov.
**Redaktorlar:** Qabil Şükürov, Malik Əlisoy, Telmar Namazov.

*Möhtərəm oxucu! Əlinizdəki bu kitabça özünü "peyğəmbər" adlandıran, əslində yeni din təlqin edən Asif Əfəndiyev (Asif Ata) və onun "Mütləqə inam" təliminin tənqididir. Bu yazı zaman-zaman aktivləşən təlimə və bu təlimin davamçılarına sağlam İslam əqidəsi prizmasından verilmiş ilk rəddiyədir. Ateizm və dinin bir arada ola bilmədiyi halda, belə bir batil təlimi təbliğ etmək açıq-aşkar görünən ziddiyyətin əsasıdır. Sizə təqdim edilən bu yazı bu təlimdə olan ziddiyyətləri, yanlışları və batilləri ifşa edir! Allah xalqımız üçün faydalı etsin!*

*Sahib Əsədov*

İSLAMIN MÜDAFİƏSİ